# Şirvanda "Qərbi Azərbaycan Azərbaycanın əzəli torpağıdır!" mövzusunda tədbir keçirilib

**Şirvan şəhərindəki T.Bağırov adına 11 nömrəli tam orta ümumtəhsil məktəbində "Qərbi Azərbaycan Azərbaycanın əzəli torpağıdır!" mövzusunda açıq dərs keçirilib.**





Şəhər icra hakimiyyətinin başçısı İlqar Abbasov, Azərbaycan Dövlət Pedaqoji Universitetinin prorektoru, Qərbi Azərbaycan İcması İdarə Heyətinin üzvü professor Mahirə Hüseynova, Elm və Təhsil Nazirliyinin, Şirvan-Salyan Regional Təhsil İdarəsinin əməkdaşları, məktəbin müəllimləri, yuxarı sinif şagirdləri və digər qonaqların iştirak etdikləri tədbiri açan məktəbin direktoru vəzifəsini icra edən Yusif Haxverdiyev bildirib ki, Prezident İlham Əliyevin Qərbi Azərbaycanla bağlı tarixi həqiqətlərə əsaslanan fikirləri biz azərbaycanlılar üçün, xüsusilə gənclər üçün qürurvericidir. Ona görə də bütün Azərbaycan gəncliyi bu həqiqətləri düzgün öyrənməli və bu istiqamətdə üzərinə düşən vəzifəni, o cümlədən maarifləndirici təbliğat işlərini layiqincə yerinə yetirməlidir.

Sonra çıxış edən professor Mahirə Hüseynova Qərbi Azərbaycan həqiqətlərinin, tarixi faktların, xronoloji mənbələrin və xəritələrin geniş auditoriyalara çatdırılmasının xüsusi əhəmiyyət kəsb etdiyini vurğulayıb. Qeyd edib ki, baş verən proseslər fonunda həm dövlət qurumlarının, həm ictimai təşkilatların, həm də təhsil müəssisələrinin üzərinə mühüm vəzifələr düşür: "Artıq Qərbi Azərbaycan məsələsinin bizim xalqın, gənc nəslin milli kimliyinin ayrılmaz hissəsinə çevrilidiyini nəzərə alaraq, gənclər arasında bu istiqamətdə maarifləndirmə işləri daha da gücləndirilməlidir. Qərbi Azərbaycanla bağlı keçirilən dərslərdə bu diyarın tarixi, coğrafiyası, mədəniyyəti, ədəbiyyatı, görkəmli ictimai xadimləri, tarixi şəxsiyyətləri, toponimləri, folkloru haqqında maarifləndirmə tədbirlərinə geniş yer verilməlidir". Mahirə Hüseynova bu mövzunun azərbaycançılıq ideologiyasının mühüm tərkib hissəsi olduğunu bildirərək, Qərbi Azərbaycan ərazilərinin Azərbaycan xalqının tarixi yaddaşında, mədəni kimliyində və mənəvi dünyasında tutduğu yerə diqqət çəkib.

Tədbirdə çıxış edən Şirvan Şəhər İcra Hakimiyyətinin başçısı İlqar Abbasov ermənilərin azərbaycanlılara qarşı törətdiyi soyqırımı, etnik təmizləmə və deportasiya siyasətindən bəhs edib. Qeyd edib ki, XX əsrdə mərhələlərlə davam etmiş ermənilərin azərbaycanlılara qarşı deportasiya siyasəti tarixi-mədəni irsimizin məhvinə yönəldilib, abidələrimiz dağıdılıb, qədim Azərbaycan toponimləri saxta və uydurma adlarla əvəzlənib. Diqqətə çatdırıb ki, 1993-cü ildə Ulu Öndər Heydər Əliyevin hakimiyyətə gəlişi Qərbi Azərbaycana qayıdışın da siyasi və hüquqi əsasını qoyub. Həmin siyasət bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Tədbir məktəbin həyətində ağacəkmə aksiyası ilə yekunlaşıb
.

***Seyran CAVADOV,***
***"Azərbaycan"***

Azərbaycan.- 2026.- 17 fevral (№30).- S.14.